*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 455-462*

https://doi.org/10.62837/2025.6.455

**ŞƏFA YUSUBOVA ETIBAR QIZI**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*ORCİD İD: 0009-0008-1931-0558*
*shafaeyusubova@gmail.com*

# NİGAR RƏFİBƏYLİNİN LİRİKASINDA MÖVZU MÜXTƏLİFLİYİ

**Xülasə:**

Nigar Rəfibəyli zəngin yaradıcılığı ilə Azərbaycan poeziyasında öz yeri olan şairlərdən biridir. Nigar Rəfibəylinin lirikası Azərbaycan poeziyasının inkişafında mühüm rol oynamışdır. O, qadın şair kimi ədəbiyyatımıza yeni nəfəs gətirmiş, lirikasında insan və cəmiyyət problemlərini bədii şəkildə əks etdirmişdir. Nigar Rəfibəylinin lirikası çoxşaxəli mövzu, zəngin təsvir və ifadə vasitələri, orijinal yanaşma baxımından rəngarəngdir. İllər keçdikcə, Nigar Rəfibəylinin lirikası klassik və müasir poeziyianın vəhdətini əks etdirərək oxucuda xoş ovqat və dərin düşüncə yaratmaqla inkişaf etmişdir. Bu lirika müasir həyatın motivləri və fərdi hisslərin ifadəsi ilə ön plana çıxsa da, klassik poeziyanın bəzi ənənəvi elementlərini; bədii təsvir və ifadə vasitələrindən bol istifadə, səmimi lirizm və yüksək estetik çalarla diqqət çəkir. Bununla da klassik və müasir lirikanın sintezi hiss olunur. Nigar Rəfibəylinin lirikasında qəzəl janrına da rast gəlmək olur. Şairənin lirikasında sevgi şeirləri, vətənpərvərlik, təbiət, müharibə, qadınlıq və analıq və s. mövzular özünü qabarıq şəkildə göstərir. Onun şeirlərində vətənə sevgi, azadlıq, sülh və əmin-amanlıq ideyaları geniş yer alır. Şairə yaşadığı dövrün ictimai-siyasi hadisələrinə həssas yanaşmış, insanları səadətə, işığa çağırmışdır. Təbiət şeirləri Nigar Rəfibəylinin lirikasında xüsusi yer tut Nigar xanımın redaktorluq, tərcüməçilik fəaliyyəti, "Mətbəx şeirləri" yeniliyi, Rəsul Rza ilə bağlı bağlılığı maraq yaradan nüanslardandır.

**Açar sözlər: Nigar Rəfibəyli, lirika, Azərbaycan ədəbiyyatı, poeziya**

## THE NIGAR RAFIBEYLI'S LYRICS

**Shafa Yusubova Etibar gizi**
Institute of Literature named after Nizami Ganjavi, ANAS
ORCID ID: 0009-0008-1931-0558
shafaeyusubova@gmail.com

**Summary:**

Nigar Rafibeyli is one of the poets who has a place in Azerbaijani poetry with her rich creativity. Nigar Rafibeyli's lyrics have played an important role in the development of Azerbaijani poetry. As a female poet, she has brought new life to our literature and artistically reflected human and social problems in her lyrics. Nigar

Rafibeyli's lyrics are diverse in terms of multifaceted themes, rich means of description and expression, and original approach. Over the years, Nigar Rafibeyli's lyrics have developed by reflecting the unity of classical and modern poetry, creating a good mood and deep thought in the reader. Although these lyrics come to the fore with the motifs of modern life and the expression of individual feelings, they also attract attention with some traditional elements of classical poetry; abundant use of artistic means of description and expression, sincere lyricism, and high aesthetic tones. Thus, a synthesis of classical and modern lyrics is felt. The ghazal genre can also be found in Nigar Rafibeyli's lyrics. In the poetess's lyrics, love poems, patriotism, nature, war, femininity and motherhood, etc. themes are prominently displayed. In his poems, the ideas of love for the motherland, freedom, peace and tranquility are widely present. The poetess was sensitive to the socio-political events of the time she lived in, calling people to happiness and light. Nature poems occupy a special place in Nigar Rafibeyli's lyrics. Nigar's editorial and translation activities, the novelty of "Kitchen Poems", and her attachment to Rasul Rza are some of the interesting nuances.

**Keywords: Nigar Rafibeyli, lyrics, Azerbaijani literature, poetry**

## СЛОВА НИГАР РАФИБЕЙЛИ

**Шафа Юсубова Этибар кызы**
Институт литературы имени Низами Гянджеви НАНА
Идентификатор ORCID: 0009-0008-1931-0558
shafaeyusubova@gmail.com

**Резюме:**

Нигяр Рафибейли – одна из поэтесс, чьи стихи, благодаря богатому творчеству, занимают особое место в азербайджанской поэзии. Её лирика сыграла важную роль в её развитии. Будучи поэтессой, она вдохнула новую жизнь в нашу литературу и художественно отразила в своих стихах человеческие и социальные проблемы. Лирика Нигяр Рафибейли отличается многогранностью тем, богатством образов и выразительных средств, а также оригинальным подходом. С годами лирика Нигяр Рафибейли развивалась, отражая единство классической и современной поэзии, создавая у читателя хорошее настроение и глубокие размышления. Хотя в этих стихах на первый план выходят мотивы современной жизни и выражение личных чувств, они также привлекают внимание традиционными элементами классической поэзии: обильным использованием художественных средств образов и выражения, искренним лиризмом и высокими эстетическими интонациями. Таким образом, ощущается синтез классической и современной лирики. В лирике Нигяр Рафибейли также присутствует жанр газели. В лирике поэтессы заметное место занимают темы любви, патриотизма, природы, войны, женственности и

материнства и т.д. В её стихах широко представлены идеи любви к родине, свободы, мира и покоя. Поэтесса чутко реагировала на общественно-политические события своего времени, призывая людей к счастью и свету. Стихи о природе занимают особое место в лирике Нигяр Рафибейли. Среди интересных нюансов – редакторская и переводческая деятельность Нигяр, новизна «Кухонных стихов», её привязанность к Расулу Рзе.

**Ключевые слова: Нигяр Рафибейли, лирика, азербайджанская литература, поэзия**

Nigar Rəfibəyli Azərbaycan poeziyasında özünəməxsus dəst-xətti olan şairlərdən biridir. O, həyatının mərkəzinə ailəsini, övladlarını qoysa da, məişətin boz rəngində boğulmamış, əksinə, zəngin yaradıcı ruhun harada, hansı şəraitdə olmasına baxmayaraq günəş kimi parıldaya biləcəyinin ən gözəl nümunəsi olmuşdur.

Nigar Rəfibəylinin yaradıcılığının başlanğıcı elə bir dövrə təsadüf edirdi ki, bu zaman kənar təsirlərə qulaq tıxayıb sadəcə öz lirik dünyanda var olmaq mümkün deyildi. Üstəlik, Nigarın ailəsində baş verənlər onu istəməsə də zamanın siyasi "qırmızılığının" oduna çəkirdi. Nigar bu alovda yanıb kül ola da bilərdi, o isə küllərindən yaranmağı seçdi. Sovetin soyuq qaranlığı onu uda bilmədi. Gənc Nigar bu qaranlıqda işıldaböcək kimi ümid saçaraq poeziyamızın qadın zərifliyinin yox olmasının qarşısını aldı. O, bu mübarizədə sadəcə Nigar olaraq yox, Azərbaycan poetik zərifliyinin timsalı kimi missiya daşıyırdı.

Şairənin ilk şeiri "Çadra" 1928-ci ildə "Dan ulduzu" jurnalında çap olunmuşdur. İlk şeirlər kitabı isə 1934-cü ildə işıq üzü görmüşdür. (1. 10 )

"Çadra" şeirində çadra bir geyim əşyası kimi yox, qadının ruhunu və gözəlliyini məhdudlaşdıran bir simvol kimi təqdim olunub:

İşıqlı gözlərinin yorğun qanadlarından
O qara rəngli qorxunc gecəni qaldır və at.
Günün nurlarını iç al şəfəqli yarından,
O gözəl gözlərində parlasın yeni həyat. (4. 182)

İllər keçdikcə, Nigar Rəfibəylinin lirikası klassik və müasir poeziyianın vəhdətini əks etdirərək oxucuda xoş ovqat və dərin düşüncə yaratmaqla inkişaf etmişdir.

Bu lirika müasir həyatın motivləri və fərdi hisslərin ifadəsi ilə ön plana çıxsa da, klassik poeziyanın bəzi ənənəvi elementlərini; bədii təsvir və ifadə vasitələrindən bol istifadə, səmimi lirizm və yüksək estetik çalarla diqqət çəkir. Bununla da klassik və müasir lirikanın sintezi hiss olunur. Nigar Rəfibəylinin lirikasında qəzəl janrına da rast gəlmək olur.

Yenə yarım bu gecə könlümə mehman olmadı,
Bəzmə saldı meylini, saf üzə heyran olmadı...
Dedilər, gül kimisən, gül ki, fəğan etməz, Nigar,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 455-462*

Dedim, ey hansı gülün bağrı dolu qan olmadı. (4. 161)

Bu qəzəldə klassik lirikanın əsas xüsusiyyətləri və şərq poeziyasına xas elementlər görünür. Hicran, ayrılıq, həsrət –bu hissləri personallaşdıraraq klassik lirikaya məxsus ritm və qafiyə ilə bütünlənmiş, aşiqin daxili iztirabını, kədərini, duyğularının dərinliyini göstərmişdir.

Nigar Rəfibəylinin lirikasında vətənpərvərlik mövzusu, torpağa bağlılıq, xalqın qəhrəmanlıq və fədakarlığı böyük coşqu ilə ifadə olunur.Bu tərənnüm vətənin sadəcə gözəllikləri, xoş günü ilə kifayətlənmir,ağır günlərində, çətinliklərdə, qürbətdə, qədim tarixi ilə birgə oxucuya sevgi ilə ötürür.

Mən sənin torpağından
Boy atmışam, vətənim…
Bir gün sinəmdə əgər
Çırpınmasa bu ürək,
Torpağın altda belə
Sənin böyük eşqinlə
Həmişə döyünəcək… (5. 25)

Onun şeirlərində vətənə sevgi, azadlıq, sülh və əmin-amanlıq ideyaları geniş yer alır. Şairə yaşadığı dövrün ictimai-siyasi hadisələrinə həssas yanaşmış, insanları səadətə, işığa çağırmışdır. Vətən torpağının gözəllikləri, xalqın taleyi və milli dəyərlər onun poeziyasının əsas mövzularıdır. Müharibə dövründə yazdığı “Get, sevgilim, uğur olsun!”, “Yenilməzdir ana vətən”, “Qəhrəmanın ölümü”, “Vətənin qızları”, “Uzaqda”, “Xərabədə bitən çiçək” və s. şeirlərinin hər misrasında Nigar,humanistdir. O, hadisələrə sadəcə qadın şəfqəti ilə yanaşmır, analığı intellektual şəxsiyəti ilə birləşdiyi üçün məhdud çərçivədən çıxırdı.

Amandır, sükut eyləyin,
Bir yaralı əskər yatır.
Vətənə keşik çəkən,
Sədaqətli gözlər yatır. (4. 230)

Vətən sevgisi sadəcə o vətəndə yaşayərkən olmur, bəzən qürbətdə olmaq, vətənə həsrət qalmaq, bu uzaqlığın məcburiyyətində boğulmaq vətənə daha çox bağlayır insanı. Üstəgəl, Nigar Rəfibəyli bu qürbətçiliyi qardaşlarının simasında dərindən yaşayırdı. Türkiyədə yaşayan qardaşı Kamillə 40 illik həsrətin dərdini çəkən müəllif, qardaşı ilə görüşdən çox təsirlənsə də mövcud rejimə görə, bu barədə təəssüratlarını açıq aydın yazmağa cəsarət etməmişdi. Buna baxmayaraq vətən həsrətli şeirlərində Nigar Rəfibəylinin dərdinin nə olduğu, kim olduğu açıq bəlli idi:

Bir udum vətən suyuna,
Bir ovuc vətən torpağına,
Həsrət olanları düşünürəm.
Çətindir vətənsiz, elsiz olmaq.(4. 109)

“Şairənin Azərbaycan" jurnalının 1970-ci il 3 və 4-cü saylarında çap olunmuş “Salamat qal, əziz qonşu” əsəri Türkiyə ədəbi təbəqəsi və Türkiyə səfəri barədə yazılan nümunələrin ilklərindən idi.” (3. 15)

Yaradıcı axtarışlarının məhsuldar nəticəsi kimi təbiət şeirləri Nigar Rəfibəylinin lirikasında xüsusi yer tutaraq, özünün bahar təravəti ilə oxucuda saf və ümidverici duyğular yaradıb. Bu duyğular insanın mənəvi ailəmi ilə vəhdəddə verilir. Bu şeirlərdə siz təbiətin hər üzünü – rəngarəng təravətini, fəsillərin dəyişkənliyini, çiçəklərin ətrini, dənizin təlatümünü, quşların səsini insanın mənəvi xüsusiyyətləri ilə necə ahəngləşdiyinin şahidi olacaqsınız.

Pəncərənin önündə bir ağac,
Puçurladı, yarpaq açdı, aram-aram
Üzərinə qar kimi töküldü
Ağ çiçəklər, səhər axşam…(4. 119)

Bu misralarda adi təbiət hadisəsi poetik şəkildə təsvir olunaraq daxili yenilənmə, sevinc və ümid ifadə edir.

Nigar Rəfibəyli təbiətin, gülün, çiçəyin hər anını hiss edir, onu ifadə edirdisə də, ruhunu tamamlayan hər zaman bahar olmuşdur. Bahar onun üçün həm təbiətin oyanışı, həm də daxili enerjinin, gəncliyin, həyata bağlılığın simvolu olmuşdur. “Bahar lövhəsi”, “Gecikən bahara”, “Qışda bahar həsrəti”, “Bahar gəlir”, “Bahar nəğməsi” və s. şeirlərini buna misal göstərmək olar.

Ulduzlar bu axşam sarıdır yenə
Tökülmş elə bil suyun üstünə…
Yenə qucaqlayıb aydın səhəri,
Yalnız xoş görünür ona ilk bahar (4. 20)

Bu misralar açıq aşkar göstərir ki, Nigar Rəfibəylinin ruhunda həmişə bahar təravəti, həyat eşqi olub, o, istər yaradıcılığa başladığı ilk zamanlar, istərsə də püxtələşdiyi dövrlərdə təbiətin rəngarəng zənginliyindən ilhamlanmış, ona vurğunluğunu qabarıq şəkildə göstərmişdir. Təbiətə münasibətdə müəllif, əzəmətli dağların vüqarını, ucsuz-bucaqsız düzlərin azadlığını, buz şəlalələrin təmizliyini, çiçəklərin təravətini insanı duyğularla birləşdirərək təsirli bədii lövhələrə imza atmışdır. Bu şeirlərin hər misrası oxucunu sevgi dolu dünyaya səsləyir.

Səhər günəş doğanda
Aləm nura boyanır,
Şehli qərənfillərin
Üzündə sevinc yanır.
Çiçəklərə, güllərə
Inci şehlər ələnir (4. 19)

Bu dünyanı ifadə edən misralar çox təbii və içdəndir. Oxucu onunla ünsiyyətdə olarkən qəribsəmir, və özünün duyğularına ayna tutulmuş kimi hiss edir.

Nigarın çiçək qoxulu şeirindəki səslər möhkəm çıxmır, pıçıltı ilə, "Çiçəklər", "Ağ çiçək", "Qərənfil", Nərgiz gülü", "Lalə", "Yasəmən gülü" və digər gözəlləmələrlə ən həzin duyğuları yaşadırdı.

Sarı nərgiz, nazlı bənövşə, reyhan,
Sizdən ayrı könlüm olur pərişan,
Siz də yad eləyin, məni bircə an,
Vəsf eləsin telli saz çiçəkləri. (4. 140)

Nigar Rəfibəylinin hər zaman üçün aktual olan, hər dövrün oxucusuna xitab edən sevgi şeirləri qadın duyğularının poetik dillə zərif ifadəsidir. Nigar insanı tanıyırdı, onun hisslərinin eniş-çıxışlarına, təlatümlərinə yaxşı bələd idi ona görə sevgi şeirləri hər qəlbin titrəməsinə səbəb olan həssaslıqda yazılırdı.Azərbaycan ədəbiyyatında dillər əzbərinə çevrilmiş mahnıların sözlərini bəzəyən bu şeirlər balacadan böyüyə hər kəsin ruhunu oxşayır:

Ala gözlüm, sənən ayrı gecələr,
Bir il kimi uzun olur, neyləyim?
Bağçamızda qızılgüllər hər səhər
Tezdən açır, vaxtsız solur, neyləyim? (4. 132)

Şairənin sevgi şeirlərindəki obrazlar, xəyali aləmdən çıxmış, bizə, mənliyimizə yaxın olan, tanıdığımız real ünvanlardır. Bu səbəbdən onun lirikası inandırıcı və səmimidir. Sevginin hər üzü; kədəri, sevinci, həsrəti, vüsalı bu lirikada əks olunub.

Şəhərlər həyəcan içindədir,
Riqqətlə titrəyir teleqraf telləri.
İki sevən ürək axtarır bir-birini,
İki sevən ürəyin,
Bir-birindən yoxdur xəbəri...(4. 25)

Bu sevginin qaynağı normal Azərbaycan ailəsinə məxsus dəyərləri daşıyan Rəsul Rza və Nigar Rəfibəylinin təməlini qoyduğu evliliyin tarixi idi. Hələ gənc yaşlarından taleyin onları qarşılaşdırdığı bu romantik yoldaşlıqda sədaqətli Rəsul, nazlı Nigar iki lirik qəlbin duyğu dəryasına dalmışdı.

Rəsul Rzanın yaradıcılığında rast gəldiyimiz "Məktublar" (Səndən sənə) silsiləsi bu sevginin yaranma tarixi, keçdiyi yol, Rəsul Rzanın Nigar xanımın ürəyini ələ almaq üçün keçdiyi "keşməkeşlər" barədə aydın təəssürat yaradır.

Dünəndən aləm dəyişib gözlərimdə.
Çiyinlərimdə qanadlarım var.
Dörd yanımda fasiləsiz bahar.
Əlimdə - bir dəfə tutmadığım əllərinin istisi. (6. 295)

Nigar xanım sevginin ən gözəl halını yaşamış, öz lirikasında da onu bu şəkildə ifadə etmişdir. Şairənin sevgi mövzulu şeirlərini oxuyan oxucunun eşqə inamı artır, qarşılaşdıqları bütün çətinliklərə baxmayaraq hər zaman yan-yana duran Rəsul və Nigarın sevgisindən nümunə götürür. Birlikdə ömür sürdükləri 47 il ərzində bəzən

müəyyən səbəblərdən ayrı düşsələr də, nə araya girən müharibə, nə xəstəlik, nə çətinlik onların ilhamlandıran məhəbbətni azaltmamış, Azərbaycan poeziyası da bundan öz nəsibini almışdır. Rəsul Rzanın "Səndən sənə" silsilə şeirləri ilə tanış olduqdan sonra da Nigar Rəfibəylinin sevgi şeirlərinin yaranma səbəbini anlamaq çətin olmur.

Yanında olmasam da, qəlbindəyəm, bilirəm,
Bir an həsrət yaşını gözlərimdən silirəm.
Ən dərin duyğularla qəlbimiz çırpdı hər an,
Zamanın sınağından, illərin imtahanından (4. 75)

Zaman keçdikcə Nigar Rəfibəylinin lirikasının mövzusu çox geniş siferanı əhatə edirdi, Nigar bu lirikada sevən, həsrət çəkən fərddən, qayğıkeş anaya yol alır, bu məhəbbət sadəcə sevgiliyə deyil, dünyaya, təbiətə, anaya, vətənə ithaf olunurdu.Azərbaycan qadınının dünyaya örnək daxili gücü, fədakarlığı, sədaqəti və mərhəməti bədii boyalarla gələcək nəsillərə ötürülürdü. Ana olduqdan sonra analıq anlayışının daha da müqəddəsləşdiyi dövrlərdə Nigar xanım bir birindən təsirli şeirlər yaratmağa davam edirdi, bəzən ümumi analıq anlayışı, bəzən övladlarına həsr etdiyi şeirlərində oxucu onu fərqli tərəflərdən kəşf edirdi.

Nə gözəlsən, qəşəngsən, gəlinlik paltarında
Gül-çiçəklə bəzənib, a qızım, yolların da.
Kaş əlvan çiçəklərin saralıb – solmayaydı,
Sənin nurlu dünyana toxunan olmayaydı (4. 136)

Məlumdur ki, Nigar Rəfibəyli yaradıcılıq potensialının hamısını ortaya qoya bilməmişdi. Ailə qayğısı, Azərbaycan qadınına biçilən qaftan, övladlar onu şair dünyasına heç nə düşünmədən dalmağına mane olmuşdu. Bu ələbəttə ki, Nigar xanımın öz seçimi idi, amma bəzən şairliyi qadınlığını üstələyir, başqa xülyalarda gəzişməsinə səbəb olurdu. "Nigar xanım soy-kökündən gəlmə abır-ismətin, xanım-xatınlığın, analıq duyğusunun hökmüylə sənət kuluarlarından vaz keçdi, könüllü olaraq mətbəx qoxusuna, ev-ocaq həyanlığına, bir az sərt desək, ailə "əsarətinə" üstünlük verdi." ( 2. 28)

Qadın olmasaydım əgər,
Qazanların, qabların,
Nimçələrin, çömçələrin
Aləmindən qaçardım.
Səhəri dəniz qırağında
Qayaların üstündə açardım...
Ürəyim bu mətbəx aləmində
Yaman darıxır,
Mən bir azca da şairəm axı. (4. 51)

Nigar Rəfibəylinin lirikası Azərbaycan poeziyasının inkişafında mühüm rol oynamışdır. O, qadın şair kimi ədəbiyyatımıza yeni nəfəs gətirmiş, lirikasında insan və cəmiyyət problemlərini bədii şəkildə əks etdirmişdir.

Nigar Rəfibəylinin yaradıcılığı bundan sonra da geniş araşdırmalar və məhsuldar tədqiqat üçün müsaitdir

## Ədəbiyyat:

1. Bəkir Nəbiyev. Nigar Rəfibəyli "Seçilmiş əsərləri" ön söz. "Şərq-Qərb", Bakı, səh. 392
2. İntiqam Mehdizadə. 525-ci qəzet. 2010. 20 fevral. S. 28.
3. Namiq Əhmədov "525-ci qəzet". – 2022. – 14 sentyabr. – S. 15.
4. Nigar Rəfibəyli. Seçilmiş əsərləri. "Şərq-Qərb" , Bakı, 2004. Səh. 392
5. "Ulduz" ədəbi-bədii jurnal, №01 (620) Yanvar 2021 | 25.
6. Rəsul Rza seçilmiş əsərləri. Beş cilddə. II Cild "Öndər nəşriyyat", Bakı – 2005 səh. 320

**Rəyçi: Hicran Nəsibova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent.**